[redacted] [redacted]

# Tövsiyə Məktubu

02 İyul 2013,

Azərbaycan Dövlət İqtisad Universitetinin [redacted] fakültəsi üzrə Xüsusi İstedadlar Qrupunun tələbəsi olan, hər zaman dərslərdə fəallığı və nizam intizamı ilə fərqlənən [redacted] haqqında tövsiyə məktubu yazmaq çox xoşdur. İlk öncə bildirmək istərdim ki, o, yüksək balla universitetimizə daxil olmuş, ikinci kursda isə imtahan verərək təhsilini Xüsusi İstedadlar qrupunda davam etdirmişdir. O, öz ugurlarını bakalavr təhsili müddətində də davam etdirərək yüksək qiymətlərlə universitetin fərqlənən tələbələrindən biri olmuşdur.

Mən [redacted] ilin sentyabr ayından tanıyıram. [redacted] tədris etdiyim [redacted] dərsi sayəsində daha yaxından tanımaq imkanım olmuşdur. Hər zaman dərslərə hazır gələn [redacted] öz ideyaları ilə də diqqətimi çəkmişdir. Dərs zamanı onun gözəl analitik təhlil aparmaq, məntiqli qərar vermək, yüksək təqdimat vərdişləri, cəld qərar qəbul etmək və liderlik kimi xüsusiyyətlərinin dəfələrlə şahidi olmuşam. Böyük məmnunluqla qeyd etmək istərdim ki, [redacted] həm tədris etdiyim fənndən, eləcə də digər fənnlərdən yüksək qiymətlər alaraq universitetimizi fərqlənmə diplomu ilə başa vurmuşdur.

Tələbəmizin akademik uğurları ilə birgə sosial fəaliyyətlərdə də yetərincə fəal olduğunun müşahidə etmişəm. Belə ki, [redacted] universitetdə hər zaman təşkilati tədbirlərdə iştirak etmiş, həm onun özünün, həm də digər tələbə yoldaşlarının sosial cəhətdən inkişafına yol açmışdır.

Heç bir şübhə olmadan qeyd edə bilərəm ki, [redacted] "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nda iştirakı ölkəmiz üçün yüksək ixtisaslı kadrların yetişməsi istiqamətində böyük imkanlar yaradacaqdır. Bu səbəblə, Universitetimizin nümayəndəsi kimi, [redacted] tam əminliklə sizə tövsiyə edərdim.

Dərin hörmətlə,

[redacted]

Tövsiyə edən şəxsin imzası
və fəaliyyət göstərdiyi
qurumun müvafiq möhürü

[redacted]